Lalə Allahverdi qızı Cabbarlı
UOT: 338.658; JEL: L52.

Aqrar sektorun subsidiyalaşması: dünya təcrübəsi

Xülasə

Məqalədə aqrar sektora dövlət dəstəyinin formaları qruplaşdırılmış, Avropa İttifaqında (Aİ) subsidiyanın kənd təsərrüfatı məhsulunda payı müəyyənləşdirilimişdir. Eyni zamanda, bəzi dünya ölkələrində kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafına ayrılmış subsidiyanın həcmi müqayisəli təhlil edilmişdir. Məqalədə müəllif belə bir nəticə əldə etmişdir ki, iqtisadiyyatın mühüm sahələrindən biri hesab edilən kənd təsərrüfatına subsidiyanın ayrılması bilavasitə məhsul istehsalının həcminin yüksəldilməsində həlledici rola malikdir.

Açar sözlər: *kənd təsərrüfatı, aqrar sektor, subsidiya, dövlət dəstəyi*

Giriş

Aqrar sektora dövlət dəstəyi alətlərindən ən geniş yayılanlarından biri kənd təsərrüfatı subsidiyaları hesab edilir. Kənd təsərrüfatı subsidiyaları bir çox ölkələrdə fermerlərin həyatının ayrılmaz hissəsidir. Bu baxımdan, dünyanın müxtəlif ölkələrində kənd təsərrüfatına ayrılan subsidiyalar sektorun inkişafında çox vacib rol oynayır. Dünya ölkələrində aqrar sektorun inkişafı üçün müxtəlif kənd təsərrüfatı subsidiyalarına çoxlu sayda pul xərcləri ayrılır. Kənd təsərrüfatı subsidiyası fermerlərin və aqrobiznes müəssisələrinin gəlirlərini artırmaq, kənd təsərrüfatı məhsullarının tədarükünü idarə etmək, bu cür malların maya dəyərinə və tədarükünə təsir göstərmək üçün ödənilən dövlət maliyyə dəstəyidir. Subsidiyanın özəlliyi ondan ibarətdir ki, subsidiya dövlət tərəfindən verilir, verilən vəsait istehsal üçün nəzərdə tutulur və bu vəsaitdən heç bir qarşılıq gözlənilmir. Bu baxımdan ölkələrarası müqayisəli təhlil əsasında subsidiyaların kənd təsərrüfatının inkişafına təsirinin qiymətləndirilməsi aktualdır.

Aqrar sektora dövlət dəstəyi formaları

Subsidiyanın ən çox geniş yayılmış forması nəğd ödənişdir. Bununla birlikdə subsidiyanın bir çox digər formaları da vardır. Bu subsidiya formaları azaldılmış vergi öhdəliyində, aşağı faizli dövlət kreditlərində və ya dövlət kapitalının iştirakında mövcud ola bilər (4). Aqrar sektorun subsidiyalaşmasının məqsədləri aşağıdakılardan ibarətdir:

⇨ kənd təsərrüfatı məhsulları üzrə istehsal xərclərinin tənzimlənməsi;

⇨ fermerlərin və kənd təsərrüfatı müəssisələrinin iqtisadi səmərəliliyinin artırılması;

⇨ ərzaq məhsullarının qiymətlərinin stabilliyi;

⇨ zəruri aqrar istehsalın təşviq edilməsi.

Aqrar sahə üzrə dövlət dəstəyi formalarını isə aşağıdakı kimi qruplaşdırmaq olar:

- fermerlərə birbaşa (əkin sahəsinə və ya heyvan başına görə) ödənişlər;
- məhsullar üzrə qiymət dəstəyi (bazara müdaxilə yolu ilə);
- məhsul sığortası, kredit, marketinq, suvarma suyu və s. görə subsidiyalar;
- ixrac subsidiyası, habelə idxala kvotalar və tariflər şəklində maneələrin tətbiqi.

Avropa İttifaqı kənd təsərrüfatı siyasətinin əsasında: fermerlərə dəstək olmaq və kənd təsərrüfatında məhsuldarlığı artırmaq; fermerlərin gəlir əldə etməsini təmin etmək; iqlim dəyişikliyi ilə bağlı mübarizə aparmaq; təbii resursların səmərəli idarə olunmasına yardım

©Lalə Allahverdi qızı Cabbarlı Aqrar Tədqiqatlar Mərkəzi, doktorant. E-mail: l_cabbarli@mail.ru
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

etmək; Avropa İttifaqı ərazilərində kənd yerlərinin və landşaftın qorunmaq; kənd təsərrüfatında, aqrar sənayedə və əlaqəli sektorlarda iş yerlərini təşviq etməklə sektorun iqtisadiyyatını ayaqda saxlamaq (3). Dünya təcrübəsində yuxarıda sadalanan dəstəkləyici metodlardan istifadə etməklə ölkələr (xüsusilə inkişaf etmiş ölkələr) kənd təsərrüfatının, ümumilikdə isə aqrar sektorun inkişafına, ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd yerlərində əhalinin həyat səviyyəsinin yaxşılaşmasına nail olmuşlar. Yuxarıda sadalanan dəstəkləyici formalar arasında subsidiyalaşma daha geniş yayılmışdır. XX əsrin əvvələrindən ABŞ-da, ortalarından etibarən isə Avropada formalaşan aqrar sahənin subsidiyalaşdırılması təcrübəsi hazırda qlobal kənd təsərrüfatı sisteminin həlledici elementinə çevrilmişdir.

Avropa İttifaqı ölkələrində subsidiyalaşma

Aİ ölkələrində kənd təsərrüfatınının risklərdən qorunması və fermerlərin stimullaşdırılması məqsədilə hər il milyardlarla avro vəsait ayrılır. Təhlil göstərir ki, Aİ ölkələri içərisində kənd təsərrüfatına ayrılmış subsidiyanın həcminə görə ilk sıralarda Fransa, Almaniya, İspaniya, İtaliya, Böyük Britaniya və Polşa yer almışdır. (Diaqram 1) göründüyü kimi, 2015-2018-ci illərdə Fransada kənd təsərrüfatına ayrılmış subsidiyanının həcmi Almaniyadan 1,17-1,26 dəfə, İspaniyadan isə 1,31-1,48 dəfə çox hüduda malik olmuşdur. 2018-ci ilin göstəricilərinə görə Fransa İtaliya və Böyük Britaniya ilə müqayisədə müvafiq olaraq 1,62 və 2,18 dəfə çox subsidiya ayırmışdır. Fransa və Almaniyada kənd təsərrüfatının inkişafına təsir edən əsas səbəb bu sahəyə dövlət dəstəyinin yüksək olmasından qaynaqlanır. 2015-2018-ci illər ərzində Aİ ölkələrinin kənd təsərrüfatına ayırdığı subsidiyanın həcmi diaqram 1-də verilmişdir.



Qeyd:https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/production/production-country/statistical-factsheets məlumatları əsasında müəllif tərtib etmişdir.

Diaqram 2-dən göründüyü kimi 2015-2018-ci illərdə bəzi Aİ ölkələrində subsidiyaların həcmi artmış (16 ölkədə), bəzilərində (12 ölkə) isə azalmışdır. Təhlil ilində ən çox artım Kiprdə (54.5%), ən çox azalma isə Hollandiyada (21.6%) olmuşdur.



Qeyd:https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/production/production-country/statistical-factsheets məlumatları əsasında müəllif tərtib etmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Aİ-də kənd təsərrüfatı üzrə subsidiyalar Ümumi Aqrar Siyasət (CAP) vasitəsilə maliyyələşdirilir. Birbaşa subsidiyalar əsasən meyvə-tərəvəz, şərab, süd və süd məhsulları, ət məhsulları və kənd yerlərinin inkişafına görə verilir. Aİ-də kənd təsərrüfatına ayrılmış subsidiyanın həcminin kənd təsərrüfatı məhsulunun həcmində payını müəyyənləşdirmək üçün məlumatları təhlil etdikdə görünür ki, 2018-ci ildə cəmi 365 487 milyon avro dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilmiş, kənd təsərrüfatı istehsalçılarına isə 47119 milyon avro subsidiya verilmişdir. Aİ-də subsidiyanın kənd təsərrüfatı məhsulunda payı 13% təşkil etmişdir (6).

Diaqram 3.

Aİ-də subsidiyanın kənd təsərrüfatı məhsulunda payı (%)



Qeyd: (6) məlumatları əsasında müəlif tərəfindən tərtib etmişdir.

Hansı ölkədə ayrılan subsidiyanın həcminin daha çox olduğunu öyrənmək üçün subsidiyanın istehsal edilən məhsulda payını müəyyənləşdirmək lazımdır. Təhlildən göründüyü kimi, kənd təsərrüfatı məhsulunda subsidiyanın payına görə ilk sıralarda Finlandiya (42%), Latviya (30%), Estoniya (27%) və Slovakiya (26%) yer almışdır. Ən az faiz isə Hollandiyada (3%), Maltada (6%), Belçikada (7%), Kipr və Litvada (8%) olmuşdur. Beləliklə qeyd edə bilərik ki, subsidiyanın həcminin Fransa, Almaniya və İspaniyada çox olmasına baxmayaraq kənd təsərrüfatı məhsulunun həcmində bu ölkələr üzrə subsidiyanın payı 10-11% təşkil etmişdir. 2015-2018-ci illərdə Aİ ölkələrində subsidiyanın kənd təsərrüfatı məhsulunda payı təhlil edilmişdir. Daqram 3-dən göründüyü kimi Aİ ölkələrində 2015-2018-ci illər üzrə subsidiyanın kənd təsərrüfatı məhsulunda payı çox az ölkədə (Fransa, Litva, Danimarka) sabit qalsa da böyük əksəriyyətində artım müşahidə olunmuşdur. (Diaqram 3).

Gürcüstan dövləti 2012-ci ildə kənd təsərrüfatının inkişafını iqtisadiyyatın prioritetlərindən biri elan etmişdir. Ölkədə qəbul edilmiş bu qərar kənd təsərrüfatı məhsullarının həcminin 2012-ci ildən etibarən əhəmiyyətli dərəcədə artmasına səbəb olmuş, həmin ildə aqrar sahə üzrə dövlət xərcləri əvvəlki ilə nisbətən 3 dəfədən çox artaraq 124,6 milyon dollar, 2013-cü ildə isə 246,3 milyon dollar olmuşdur. Aqrar sahəyə dəstək tədbirlərinin həcminin ÜDM-ə nisbəti 1,6%, dövlət büdcəsi xərclərində payı isə 6,4% təşkil etmişdir. Qeyd edək ki, dövlət dəstəyi əsasən üzümçülük və şərabçılıq, güzəştli aqrar kreditlər, aqrar sığorta və kiçik fermerlərə dəstək kimi məsələləri əhatə etmişdir. Qeyd etmək lazımdır ki, Ermənistanda kənd təsərrüfatı üzrə büdcə xərclərinin həcmi 2014-cü ildə 67 milyon dollar, 2015-ci ildə 60 milyon dollar, o cümlədən subsidiyaların həcmi müvafiq illər üzrə 26 milyon dollar və 21 milyon dollar olmuuşdur. Cəmi xərclərin kənd təsərrüfatı üzrə ümumi məhsula nisbəti 3,3%, dövlət büdcəsi xərclərində payı isə 2,2% təşkil etmişdir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Beləliklə, bu ölkədə birbaşa subsidiyalar əsasən gübrəyə, aqrar kredit faizlərinə, damazlıq heyvanlara və suvarma suyuna görə verilir.

Diaqram 4.



Qeyd: Diaqram Aİ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Türkiyədə kənd təsərrüfatı sahəsi üzrə dövlət dəstəyinin əsas istiqamətləri bitkiçilik məhsulları (dizel yanacağı dəstəyi, sertifikatlı toxum dəstəyi, kimyəvi gübrə dəstəyi və torpaq analizi dəstəyi), sığorta və kənd yerlərinin inkişafı üzrə dövlət dəstəkləridir. Qida, Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyinin məlumatına görə, 2018-ci ildə dövlət tərəfindən kənd təsərrüfatına göstərilən dəstək 6,25 milyard dollara qədər artmışdır. Ümumilikdə 2003-2017-ci illər ərzində dövlət tərəfindən fermerlərə cəmi 44,4 milyard dollar dəyərində pul dəstəyi göstərilmişdir.

Rusiyada 2015-ci ildə büdcədən 1,5 milyard dollardan çox məbləğ kənd təsərrüfatına dəstək məqsədi ilə ayrılmışdır. Bunun da 15,3%-dən çoxu heyvandarlıq sektorunun inkişafı üzrə yönləndirilmişdir. Kənd yelərinin inkişafı (430 mln. dolları) və torpaq meliorasiya tədbirlərini (236,8 mln. dolları) həyata keçirmək üçün ümumilikdə 666,8 milyon dollar xərclənmişdir. Dövlət buğda, çovdar, arpa və qarğıdalı üçün daxili qiymətləri sabitləşdirmək məqsədi ilə qiymət intervensiyası və ixrac rüsumlarının tətbiqi kimi bir sıra siyasət alətlərindən istifadə edir.

Qazaxıstanda kənd təsərrüfatı sektoruna yönəldilmiş büdcə vəsaitlərinin həcmi 2016-cı il üzrə 348,8 milyon dollar, 2017-ci ildə isə 533,9 milyon dollar həcmində olmuşdur ki, bu da dövlət büdcəsi xərcləri məcmusunda 4-5% payı təşkil etmişdir. 2016-2017-ci ildə kənd təsərrüfatı sahəsinə dövlət dəstəyi üzrə ölkənin ÜDM-nin 1% -i miqdarına qədər nəzərə çarpacaq dərəcədə artım müşahidə edilmişdir. 2017-ci ildə hökumət tərəfindən qəbul edilmiş subsidiya qaydalarına əsasən kənd təsərrüfatı texnikası və avadanlıqlarına investisiya qoyuluşları, genofondun yaxşılaşdırılması, istehsala yeni texnologiyaların tətbiqi, eləcə də peşəkar kadrların hazırlanması məsələləri dövlət tərəfindən stimullaşdırılır. Xüsusilə vurğulamaq lazımdır ki, 2016-cı ildə heyvandarlıq sahəsi üzrə 255,8 milyon dollar, bitkiçilik sahəsi üzrə 321,5 milyon dollar həcmində subsidiya verilmişdir. Son illərdə, quşçuluğun inkişafı məqsədilə, 50-100% miqdarında xərclərin kompensasiyası şəklində dövlət dəstəyi proqramı da həyata keçirilməkdədir.

ABŞ-ın kənd təsərrüfatı siyasəti hər beş ildən bir yenilənən Qanuna əsasən tədricən və ya köklü şəkildə dəyişdirilir, vaxt keçdikcə məhsul istehsalına görə birbaşa ödənişlər deyil, bazar qiymətləri və ya gəlirlərin stabilliyinə görə ödənişlər edilir. Meyvə və tərəvəz məhsulları subsidiyaya cəlb edilmir. Bu tip kənd təsərrüfatı məhsullarına soya, arpa, süd, donuz əti və düyü daxildir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Koreyada isə 2018-ci ildə kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq sferasına dövlət büdcəsindən 16,6 milyard dollar dəyərində ayırma olmuşdur. Bu da ümumi xərclərin 4,6%-ni təşkil edir. OECD-nin məlumatlarına əsasən, Koreyada kənd təsərrüfatına dəstək yüksək olaraq qalır və əsasən istehlakçıların köçürmələri hesabına maliyyələşdirilir. Əsas subsidiyalaşdırılan kənd təsərrüfatı məhsulları ABŞ-ın aqrar subsidiya siyasəti nəticəsində 2002-ci ildə qəbul edilən "Fermerlərin Himayəsi və Kənd İnvestisiya Qanunu"na əsaslanır ("Farm Bill" kimi tanınır). Hər beş ildən bir yenilənən və Kənd Təsərrüfatı Nazirliyinin nəzarəti altında icra olunan bu Qanun çərçivəsində aqrar sahəyə 2001-ci ildən hər il 16.5 milyard dollar, 2005-ci ildən 20 milyard dollar birbaşa subsidiya ayrılmışdır. 2010-cu ildə kənd təsərrüfatı subsidiyaları ümumilikdə 172 milyard dollar dəyərində qiymətləndirilmişdir (5).

Cədvəl 1.

Kənd təsərrüfatına birbaşa subsidiyalar

İllər	Kənd təsərrüfatına birbaşa subsidiyalar, milyon AZN	Subsidiyaların büdcədə payı, %-lə
2010	111,2	0,95
2011	97,6	0,63
2012	120,2	0,69
2013	118	0,62
2014	112,9	0,6
2015	156,3	0,88
2016	183,3	1,03
2017	205,6	1,17
2018	342,8	1,51

Qeyd: Cədvəl Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin bazası əsasında hazırlanmışdır

Ölkəmizdə subsidiya dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz şəkildə verilir. Subsidiya, bilavasitə və ya dolayı yollarla verilir. Bilavasitə verilən subsidiyalara məsələn vahid istehsal başına pul şəklində verilən subsidiyalar aiddir. Dolayı subsidiyalar isə vergi və pul-kredit siyasəti vəsaitləri hesabına reallaşdırılır. Aşağıdakı cədvəldə 2010-2018-ci illər ərzində kənd təsərrüfatına ayrılan birbaşa subsidiyaların həcmi və subsidiyaların büdcədə payı göstərilmişdir. Cədvəldən də göründüyü kimi 2010-2014-cü illər ərzində istər kənd təsərrüfatına ayrılan birbaşa subsidiyaların həcmində, istərsə də subsidiyaların büdcədə payında həm artım, həm də azalma, 2014-2018- ci illər ərzində isə yalnız artım müşahidə edilmişdir (7).

Cədvəl 2-dən göründüyü kimi 2017-2018-ci illərdə Yanacaq və motor yağlarına görə subsidiya (hər hektara görə 50 manat) və mineral gübrələrin və biohumusların dəyərinin 70 faizinin ödənilməsi dövlət dəstəyində xüsusi çəkiyə malikdir. Lakin 2017-ci ilə nəzərən 2018-ci ildə Yanacaq və motor yağlarına görə subsidiyada (hər hektara görə 50 manat) 7,3% azalma, lakin "Aqrolizinq" ASC tərəfindən satılan və lizinqə verilən kənd təsərrüfatı texnikasına tətbiq edilən güzəştin həcmində isə 10,3% artma müşahidə edilmişdir. Digər dövlət dəstəyi növlərində isə böyük ölçüdə artma və ya azalma qeydə alınmamışdır. Son dövrlər subsidiya haqqında müəyyən Dövlət Proqramları hazırlanmışdır. Aqrar Subsidiya Şurası Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nın

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

2.4-cü bəndinə müvafiq olaraq, 2020-ci il üzrə bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının və əkin ehtiyaclarının müəyyən edilməsi barədə qərar qəbul edib.

Cədvəl 2.

Azərbaycanda kənd təsərrüfatına müxtəlif istiqamətləri üzrə ayrılan subsidiyaların həcmi

Dövlət dəstəyinin növü	Həcmi, min AZN		Xüsusi çəkisi	
	2017	2018	2017	2018
Yanacaq və motor yağlarına görə subsidiya (hər hektara görə 50 manat)	51295.8	60555.1	24.95	17.66
Buğda və çəltik istehsalçılarına subsidiya (hər hektara görə 40 manat)	17125.9	23330	8.33	6.8
1-ci və 2-ci reproduksiyalı toxum və ting istehsalçılarına subsidiyalar	5938.6	7738.8	2.88	2.25
Elmi-tədqiqat müəssisələrinə orijinal, elit və super elit toxumların istehsalına çəkilən xərclərin ödənilməsi	918.7	905.1	0.44	0.26
Mineral gübrələrin və biohumusların dəyərinin 70 faizinin ödənilməsi	60075.3	102257	29.2	29.8
Pestisidlərin dəyərinin 70 faizinin ödənilməsi	1645.2	5743	0.8	1.67
"Aqrolizinq" ASC tərəfindən satılan və lizinqə verilən kənd təsərrüfatı texnikasına tətbiq edilən güzəştin həcmi	31570.8	88000	15.35	25.67
"Aqrolizinq" ASC xətti ilə damazlıq heyvanların satışına tətbiq edilən güzəştin həcmi	8429.16	15970.1	4.1	4.65
Süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiya verilməsi	3929.6	6905.1	1.91	2.01
Xam pambığın hər kq-na görə 0,1 manat subsidiya verilməsi	20719.3	23038.1	10.07	6.72
Quru tütünün hər kq-na, yaş tütünün isə hər 10 kq-na görə 0,05 manat subsidiya verilməsi	201.1	247.4	0.09	0.07
Bütün növ yaş baramanın hər kq-na görə 5 manat subsidiya verilməsi	1199	2490.5	0.05	0.72
Şəkər çuğundurunun hər tonuna görə 4 manat subsidiya verilməsi	1584.6	1106.6	0.77	0.32
Təkrar əkinlərə görə (hər hektara 50 manat)	917	1431.2	0.44	0.41
Arıçılara hər arı ailəsinə (pətəyə) görə 10 manat subsidiya verilməsi	-	3106	0.0	0.9
Cəmi	**205550**	**342824**	**100.0**	**100.0**

Qeyd: Cədvəl Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin bazası əsasında hazırlanmışdır.

Nəticə

Beləliklə, Aİ və digər dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatın mühüm sahələrindən biri hesab edilən kənd təsərrüfatına subsidiyanın ayrılması bilavasitə məhsul istehsalının həcminin yüksəldilməsinə birbaşa təsir edir və bu istiqamətdə digər ölkələrdə olduğu kimi, Azərbaycanda da son illərdə mühüm irəliləyişlər vardır. Odur ki, dövlət qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində kənd təsərrüfatı istehsalına subsidiya ayırmaqla həm ölkə əhalisinin, həm də xarici ölkələrə idxalın təmin edilməsinə nail olur,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bunun üçün müvafiq Dövlət Proqramları tərtib edilir və onun həyata keçirilməsi istiqamətində müvafiq tədbirlər planı hazırlanır.

Ədəbiyyat

1. https://www.theguardian.com/sustainable-business/agricultural-subsidies-reform-government-support
2. https://southeusummit.com/europe/italy/putting-a-cap-on-farm-subsidies/
3. https://ec.europa.eu/info/food-farming-fisheries/key-policies/common-agricultural-policy/cap-glance_en
4. https://www.researchgate.net/publication/272712017_The_overview_of_Government_subsidies_to_agriculture_sector_in_India
5. https://data.oecd.org/
6. https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/production/production-country/statistical-factsheets
7. Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi
8. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

Лала Аллахверди кызы Джаббарлы

Государственная поддержка аграрного сектора и мировой опыт

Резюме

В статье сгруппированы формы государственной поддержки аграрного сектора, определена доля субсидии в сельскохозяйственной продукции ЕС. Также, был проведен сравнительный анализ объема субсидий, выделенных на развитие различных отраслей сельского хозяйства в других странах мира. Было выявлено, что выделение субсидий сельскому хозяйству, являющемуся одной из важнейших отраслей экономики, непосредственно играет решающую роль в увеличении объемов производства продукции.

Ключевые слова: *аграрный сектор, субсидия, государственная поддержка*

Lala Allahverdi Cabbarlı

State support for the agricultural sector and world experience

Summary

The article groups the forms of state support for the agricultural sector and determines the share of subsidies in EU agricultural products. Also, a comparative analysis of the volume of subsidies allocated for the development of various branches of agriculture in other countries of the world was conducted. It was found that the allocation of subsidies to agriculture, which is one of the most important sectors of the economy, directly plays a crucial role in increasing production volumes.

Keywords: *agricultural sector, subsidy, state support*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov.
Daxil olub: 13.10.2020.
Çapa qəbul olunub: 21.10.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az